# Tarix yazan igidlər



**Ermənilərin təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşan və şəhid olan oğullarımızdan biri də Adəm İlqar oğlu Əliyevdir. Onun keçdiyi şərəf dolu ömür yollarını vərəqləyəndə öyrəndik ki, 19 noyabr 2000-ci ildə Ağdam rayonunun Üçoğlan kəndində dünyaya göz açıb. İki yaşı olanda, 2002-ci ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Kürdəmir rayonuna köçməli olublar. Tofiq İsmayılov adına 1 nömrəli orta məktəbdə təhsil alıb. Kiçik yaşlarından idmana böyük maraq göstərib, kinqboks və karate ilə məşğul olub.**

2018-ci ildə orta məktəbi bitirdikdən sonra Adəm Əliyev Bakı şəhərinə üz tutaraq həmişə arzusunda olduğu əczaçılıq kursuna yazılıb. 2019-cu ildə kursu uğurla başa vurub. Elə həmin il də hərbi xidmətə çağırılıb. Böyük həvəslə, yüksək ovqatla Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirməyə yollanıb. Xidmətinin elə ilk günlərindən hərbi sirləri dərindən öyrənməyə başlayıb. Nizam-intizamlılığı ilə bərabər, təlim-məşqlərdə də seçilən əsgərlərdən biri olub. Silahların atış qaydalarını yaxşı mənimsədiyinə görə Adəmin atdığı güllələr heç vaxt hədəflərdən yayınmayıb. Buna görə də həmişə atış çalışmalarında müsbət nəticələr göstərib. Gənc əsgər kursunu başa vurduqdan sonra xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində davam etdirib.

Hərbi xidmətə olan böyük həvəs Adəm Əliyevi həmişəlik olaraq orduya bağlayıb. Vətən qarşısındakı övladlıq borcunu uğurla başa vurduqdan sonra Silahlı Qüvvələrin sırasında qalmaq qərarına gəlib. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kursunu uğurla keçib. Kurs zamanı hərbi biliklərə daha da dərindən yiyələnib, peşəkarlığını, təcrübəsini daha da artırıb. Bütün müsbət cəhətlərini nəzərə alan komandanlıq onun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirməyə razılıq verib.

27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində 44 günlük Vətən müharibəsi başlayanda əsgər Adəm Əliyev düşmən hücumlarının qarşısını alanların sırasında olub. Döyüşlərin elə ilk dəqiqələrindən silahını sinəsinə sıxaraq cəsarətlə vuruşmağa, yurdumuzu müdafiə etməyə başlayıb. Təəssüflər olsun ki, cəsur əsgərin döyüş yolu elə də uzun çəkməyib. İkinci Qarabağ müharibəsinin başladığı günün səhərisi, sentyabrın 28-də Murovdağ istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Döyüş yolu qısa olsa da, cəsarətlə, mərdliklə vuruşub, əkshücum əməliyyatları zamanı böyük igidlik və qəhrəmanlıq göstərib. Əsgər Adəm Əliyev Vətən müharibəsində Kürdəmirin ilk şəhidi olub.

İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətə görə Adəm İlqar oğlu Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid Adəm Əliyev yaxınlarının və doğmalarının yaddaşında və ürəklərində yaşayır. Onun haqqında acılı-şirinli xatirələrə qulaq asdıqca Adəm sanki gözlərimiz qarşısında daha da böyüyür, daha da ucalır. Anası Akifə xanım 20 yaşlı oğlunun döyüşdə göstərdiyi qəhrəmanlığından, igidliyindən və şücaətindən böyük qürur və fəxrlə danışır. Ana kövrək hisslərə toxunaraq deyir ki, arzuları yarımçıq qalan övladının itkisini dilə gətirmək onun üçün çox çətindir: "İki oğlum var, uşaq yaşlarından onları təkbaşına böyüdüb, boya-başa çatdırmışam. İki qardaş ağılları kəsəndən əzab-əziyyət görüblər. Adəm kiçik yaşlarından evcanlı, ailəcanlı uşaq idi. 15 yaşından səhər məktəbə gedərdi, günortadan sonra işləyib pul qazanardı ki, mənə kömək eləsin. Kənd həyatını çox sevirdi. Tez-tez "Mən baytar olacağam", - deyirdi. Mən də buna etiraz etmirdim". 2016-cı il Aprel döyüşlərində həmyerlisi, Hərbi Hava Qüvvələrinin baş leytenantı Əbubəkir İsmayılovun şəhid olması Adəmi çox sarsıtmışdı. Bir gün mənə yaxınlaşıb dedi ki, ana, Əbubəkrə şeir həsr etmişəm. Oğlumun ürəyində dolaşan Vətən sevgisi məni çox sevindirirdi. Ümid edirdim ki, Adəm gələcəkdə igid, qəhrəman bir oğlan olacaq. Sağ olsun, döyüşlərdə göstərdiyi şücaəti və hünəri ilə ümidlərimizi doğrultdu".

Akifə xanım kövrəldiyindən danışığına ara verdi. Bir azdan sözünə davam edərək dedi ki, şəhid olandan sonra gündəliyini tapıb. Necə olmuşdusa, məzuniyyətə gələndə evdə qoymuşdu. Adəmin Fuad adlı bir dostu 2018-ci ildə şəhid olmuşdu. Xidmətə gedəndən sonra zəng vurub dedi: "Ana, bilirsən hara gəlmişəm, Fuadın şəhid olduğu yerdəyəm". Fuad uçquna düşmüşdü. Onu üç gündən sonra tapmışdılar. Dedi ki, Fuad tapılanda sağ olub, yollar yaxşı olmadığı üçün tibb məntəqəsinə çatdıra bilməyiblər... Gündəliyində də ona müraciət edərək yazmışdı ki, Fuad, əgər sağ olsaydın, indi bir yerdə xidmət edərdik. Nə bilmək olar, bəlkə elə bir gün mən də sənin kimi şəhid olacam. İndi məzarları Fuadla yanaşıdır. Sonra o da hospitala çatdıranacan yolda şəhid olub. Adəm heç vaxt xidmətindən danışmazdı. Yanına getməyə də icazə verməzdi. Gündəliyini oxuyandan sonra bilmişəm ki, balam odun-alovun içində olub. Buna baxmayaraq, təyinatı gələndə sevindiyindən sanki qanad açıb uçurmuş.

Şəhid anası oğlu ilə son dəfə sentyabrın 25-də danışıb. O günləri xatırlayan ana bunları söylədi: "Odur ki, ana, yuxarı qalxırıq, imkan olanda yığacağam, özündən muğayat ol. Sonra telefonuna zəng çatmadı. Sentyabrın 27-si müharibənin başladığını eşitdik. Adəm də döyüşlərdəydi. Oğlum müharibənin ilk səhifələrinə qanı ilə, göstərdiyi igidliyi ilə tarix yazdı. Sonra öyrəndik ki, sentyabrın 27-si silahdaşları ilə birlikdə Kəlbəcər istiqamətində döyüşə yollanıb. Şiddətli döyüşlər nəticəsində erməni işğalçılarının bir neçə postunu darmadağın ediblər. Ertəsi gün, sentyabrın 28-də axşam saatlarında oğlumun şəhid xəbəri qapımızı döydü. Həmin gün ürəyimdən daş asılmışdı. O biri oğlum Arif elə hey məni sakitləşdirməyə çalışsa da, özümə gələ bilmirdim. Adəmim arzusuna çatdı, şəhid oldu. Mən oğlumla fəxr edirəm, qürur duyuram. Yaxınları, dostları onun xatirəsini həmişə əziz tuturlar".

İkinci Qarabağ müharibəsində yalnız bir gün vuruşan, amma cəsarəti və hünəri ilə böyük qəhrəmanlıq göstərən Adəm Əliyev kimi oğullar heç vaxt unudulmayacaq. Onlar həm bugünkü, həm də gələcək nəsillər tərəfindən həmişə dərin hörmətlə yad ediləcək, ehtiramla xatırlanacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***